# “Bəxt üzüyü”nü itirən sənətkar

## O, özünü “sənətin fəhləsi” adlandırırdı



**”Ramiz Əzizbəyli dünyasını dəyişdi...” Bu həftə ölkə mətbuatında və sosial platformalarda yayılan informasiyalar arasında Xalq artistinin ölümü daha çox kədər doğuran xəbərlərdən oldu. Ramiz Əzizbəyli uzun illər idi xəstəlikdən əziyyət çəkirdi. Çarpayı xəstəsi idi. Şəkər xəstəliyi vardı, yüksək qan təzyiqi ona rahatlıq vermirdi, üç dəfə insult keçirmişdi. Bir ayağının barmaqları amputasiya edilmişdi. Bir müddət əvvəl koronavirusa yoluxma diaqnozu ilə Zığ qəsəbəsində yerləşən modul tipli hospitala yerləşdirilmişdi. Həkimlər infarkt keçirdiyini də demişdilər. Onun sağalıb ayağa qalxması, yenidən sənət aləminə dönməsi bir möcüzə olacaqdı. Amma...**

### 9 YAŞINDAN KİNODA

Ramiz Əzizbəyli rejissordan çox, aktyor idi. O, rejissor kimi kino tariximizin səhifələrində izi qalan bir neçə ekran əsərinə imza atsa da, daha çox aktyor kimi yaddaşlarda qalıb.

R.Əzizbəyli 9 yaşından kino aləminə gəlib. Kinonun sehrli dünyasına bələd olmaq üçün ona uzun illər lazım olub. 1957-ci ildə televiziyanın uşaq redaksiyasında fəaliyyətə başlasa da, tezliklə istedadına, ürəyəyatımlı səsinə görə dublyajlara cəlb olunub. 10 yaşında dublyaj redaksiyasında işə başlayıb, uşaqların səsi onun ifasında səslənib və bu həvəsi ilə bir çox dostlarının sənət aləminə gəlməsinə vəsilə olub. Onların arasında Həsənağa Turabov da vardı. Böyüdükcə sənət şövqü, peşəkarlığı da artıb, böyük sənətkarlardan aktyorluğun sirlərini öyrənib: ”Mənim bu sənətdəki fəaliyyətim 1957-ci ilin fevralından başlayır. O vaxt doqquz yaşım olmasına baxmayaraq, Azərbaycan Televiziyasının uşaq redaksiyasında adıma, hətta müvəqqəti əmək kitabçası da açılmışdı. Əmək kitabçası müvəqqəti olsa da, redaksiyanın daimi üzvü idim. Azyaşlı olduğum üçün maaşımı özümə vermirdilər, poçta göndərirdilər, valideynlərim gedib götürürdülər. O illərdə verilişlər, teletamaşalar lentə yazılmırdı. Bir tamaşanı aylarla hazırlayıb bir dəfə canlı oynayırdıq. 1959-cu ildə kinostudiyanın dublyaj redaksiyasına cəlb olundum. O vaxta qədər uşaq rollarını da böyüklər səsləndirirdilər. İlk dəfə uşaq obrazlarını səsləndirməyi mənə həvalə etdilər. Xatırlayanda, görürəm ki, uşaqlığım çox gur keçib. Televiziyadakı, kinostudiyadakı işimdən əlavə, ”Bənövşə” uşaq xoru, 26-lar adına Mədəniyyət Evi, Qaqarin adına Pionerlər Sarayı və Fioletov adına Tibb İşçilərinin Mədəniyyət Evində fəaliyyət göstərən dram dərnəklərinin üzvü idim. O vaxt dram dərnəklərində olanlar mənim həvəsimə aktyorluq sənətini seçib görkəmli sənətkarlara çevrildilər. Bircə Həsənağa Turabov kimi böyük aktyor bir dəfə bunu etiraf edib dedi ki, mən başqa sənətin dalınca gedəcəkdim, bax, bu Ramizə baxıb aktyorluğu seçdim”- deyə aktyor müsahibələrinin birində ömür yolunu belə vərəqləyib.

R.Əzizbəyli məktəbli olanda dərsləri ilə bərabər, dərnək məşğələlərinə də vaxt tapıb. İçində aktyorluğa yaranan sevgidən uzaq düşə bilmir: ”Məktəbli olanda bu qədər əlavə məşğuliyyət vaxtımın çox hissəsini alırdı, amma qəribədir ki, hər işi çatdırırdım. Oxuduğum 190 nömrəli məktəbdə də fəal şagird olduğum üçün ”Artek”də də məni yaxşı tanıyırdılar. Rəsm dərnəyinə də gedirdim, qılıncoynatma, üzgüçülük, gimnastika, güləş, futbol, atçılıqla da məşğul olurdum. İndi səhhətimdəki nasazlıqlarla mübarizə aparmaqda bu fiziki hazırlıqlar öz rolunu oynayır. Yazıçılar Birliyinin üzvü olmağıma, keçən il ”Cızma-qaralar” adlı bədii yaradıcılıq toplumun çapdan çıxmağına, bu gün də ictimai işlərə həvəsli olmağıma, film çəkəndə həm redaktor, həm də rəssam kimi iştirak etməyimə bütün bu məşğuliyyətlərin böyük təsiri olub. Valideynlərimə sonsuz minnətdaram ki, mənim üçün belə imkan yaradıblar”-deyə aktyor danışırdı.



R.Əzizbəyli atasını hələ on yaşı olanda itirib. Atasızlığın nə demək olduğunu həyat ona uşaq yaşlarından öyrədib. Bu acıya alışa-alışa böyüyüb. Ailənin kiçiyi olduğu üçün anası və bacısı onun inkişafı üçün lazım olan şəraiti yaradıblar. İncəsənət sahəsini seçdiyi üçün heç vaxt heç bir qadağa da qoymayıblar: ”Anam və bacım mənimlə həmişə fəxr edirdilər. Çünki o vaxt televiziya yenicə yaranmışdı, mən də bu yeniliyin içində idim, hamı məni teleekrandan görüb tanıyırdı. Bu, doğmalarıma sonsuz qürur verirdi”.



Televiziyanın, kinonun, teatrın ab-havasında böyüdüyü üçün R.Əzizbəyli özünə kinonu sənət yolu seçir. Bu yol onu İncəsənət İnstitutuna, C.Cabbarlı adına ”Azərbaycanfilm” kinostudiyasına gətirib çıxarır...

### AKTYOR, REJİSSOR

1987-ci ildə ”Debüt” studiyasında Mirzə Cəlilin eyniadlı hekayəsi əsasında ”Pirverdinin xoruzu” qısametrajlı bədii filmi R.Əzizbəylinin rejissor kimi kinoya vizit kartı olur. Ekran əsərinin taleyi uğurlu olur. Bir neçə Beynəlxalq kinofestivalda müvəffəqiyyət qazanır. Kiyev şəhərində keçirilən Ümumittifaq festivalda rejissor debütünə görə mükafata layiq görülür.

1991-ci ildə ”Bəxt üzüyü” tammetrajlı bədii filmi isə onun rejissor kimi tanınmasında böyük rol oynayır. Film, kinoteatrlarda nümayiş olunan ən baxımlı kassa filmi və yeni tariximizdə çəkilən ilk ən gəlirli kino işi kimi yadda qalıb. Film Vaqif Səmədoğlunun eyniadlı əsəri əsasında çəkilməzdən öncə Sumqayıt teatrında uğurla tamaşaya qoyulur. ”Bəxt üzüyü” həmin illərin populyar tamaşalardan birinə çevrilir. Ssenariyə film çəkmək də həmin tamaşanı tarixə salmaq istəyindən yaranır. Ramiz Əzizbəyli ”Bəxt üzüyü” filmini ekranlaşdırmaq istəyini Vaqif Səmədoğluya bildirir. Həmin vaxt Xalq artisti Afaq Bəşirqızı özünün baş rola çəkilməsi şərtilə bu filmi çəkəcək rejissor axtarırmış. Təsadüfən istəklər üst-üstə düşdüyündən birləşib filmi çəkməyə başlayırlar.

Film əsil tamaşaçı məhəbbəti qazanır. Ölkədə kiçikdən böyüyə filmi izləməyən yox idi. ”Bəxt üzüyü” bir çox aktyorları xalqa sevdirdi, səslənən fikirləri el məsəlinə çevrildi. Ramiz Əzizbəyli filmin rejissoru olmaqdan əlavə, həm də bəzi mahnılarını ifa edir. Bəstəkar Eldar Mansurovun bəstələdiyi mahnılar ekran əsərinin ab-havasını tamamlayır. ”Bəxt üzüyü” filmi komediya janrında olsa da, onu yenidən dərd üstündə köklədim. Finalda hər kəs dağılır. Dağılan yerdə də məhəbbət, hörmət, sevgi olmur”- deyə rejissor bildirirdi.

1993-cü ildə Bakıda Azərbaycan filmlərinin II festivalı müsabiqəsində Ramiz Əzizbəyli ”Tamaşaçı rəğbəti”nə görə mükafata layiq görülür. Ekran əsəri Daşkənddə keçirilən Asiya və Latın Amerikası ölkələrinin kinofestivalında xüsusi diplom qazanır.

Filmi yeni versiyada çəkmək üçün müraciət olunsa da, aktyor razılaşmır: ”İkincisini çəkdilər, amma məncə, yaxşı olmadı. Mənə görə, film bir dəfə çəkilər. Fərqi yoxdur, pis ya da yaxşı şəkildə, amma bir dəfə. Bu tamaşa deyil ki, onu bir neçə dəfə səhnələşdirsinlər”.

R.Əzizbəylinin rejissoru olduğu ”Yalan” bədii filmi isə Qarabağ probleminə, onun törətdiyi faciələrə həsr edilib.

R.Əzizbəyli Azərbaycan kinematoqrafiyasının ”Qızıl fond”unda yer tutan bir çox filmlərdə rol alıb. ”Mozalan”ın süjetlərində, ”Ad günü”, ”Axtaran tapar”, ”Alma-almaya bənzər”, ”Bağ mövsümü”, ”Arvadım mənim, uşaqlarım mənim”, ”Bəxt üzüyü”, ”Bəyin oğurlanması”, ”Bizim küçənin oğlanları”, ”Əhməd haradadır”, ”Dərviş Parisi partladır”, ”Qaynana”, ”Park”, ”Sübhün səfiri”, ”Cavid ömrü”, Yol əhvalatı”, ”Yuxu” və s. onlarla film onu xalqa istedadlı aktyor kimi sevdirib.

Ramiz Əzizbəyli özünü sənətin fəhləsi adlandırırdı. Yalnız işini ürəkdən sevən, ona qəlbən bağlı olan, gecəsini gündüzünə qatan, yaradıcılıq əzabından zövq alan insanlar belə deyə bilər: ”Mən bu işə, bu sənətə fəhləlikdən başlamışam, elə fəhləliklə də bitirəcəyəm. Rejissorluq, aktyorluqdan daha çox bu işin fəhləliyi ilə məşğul olmaq istəyirəm. Çəkdiyim bütün filmlərdə, səhnələşdirdiyim bütün tamaşalarımda hər şeyi özüm eləmişəm. Dekorasiya mıxlamışam, quruluşçu rejissor olmuşam, rəssamlığını etmişəm, eskizlərini çəkmişəm, əsərdəki evin pərdələrinə qədər hamısını özüm tikmişəm. Düzdür, yoruldum, amma nəticədə ekranda hər şey qüsursuz alındı”- deyə aktyor sənətinə olan sevgisini bölüşürdü.

R.Əzizbəyli Azərbaycan kino sənətinin inkişafındakı xidmətlərinə görə Azərbaycanın Xalq artisti fəxri adına, ”Şöhrət” ordeninə layiq görülüb. ”Hacı Zeynalabdin Tağıyev” və ”Qızıl Buta” mükafatları laureatı idi.

### ŞUŞANI GÖRMƏK ARZUSU

Ramiz Əzizbəyli Şuşanı görməyi arzulayırdı. 30 il gözlədiyi qələbə sevincini yaşamaq qismət olmuşdu ona. Buna görə özünü xoşbəxt sayırdı. Cavanlıqda Qarabağı gəzsə də, təkcə Şuşaya gedib çıxa bilməmişdi: ”Ayağa qalxan kimi Şuşaya gedəcəyəm. Şuşada olmamışam axı... Ona görə də, mütləq gedib oranı görəcəyəm”- deyirdi. Ancaq aktyora nə Şuşanı, nə də işğaldan azad olan digər torpaqları görmək qismət oldu: ”Mən müharibə günlərində baş verənləri, həyəcanla, sevinclə, qürurla izlədim. Hər kəs kimi Qələbəmizlə fəxr elədim. Xalqımıza ancaq qələbə və sevinc yaraşır. Qələbə münasibətilə hər kəsi bağrıma basıb öpürəm və bir daha təbrik edirəm. Mən ermənilərə nifrət edirəm, onlara hiddətim günü-gündən çoxalır. Onların bizə yaşatdıqlarını heç zaman unutmamalıyıq”- aktyor sevincdən qəhərlənərək deyirdi.

Ramiz Əzizbəyli işləmək həvəsindən, yaradıcılıq arzularından əl çəkməmişdi: ”Yaratmamaq, rol oynamamaq Ramiz Əzizbəyli üçün ölüm deməkdir. Gəzmək üçün darıxmışam. Yorğan-döşəkdən yorulmuşam. Nə qədər yatmaq olar?! Əlimdə bir ssenari var. Ayağa qalxa bilsəm onu çəkəcəyəm”- deyə arzulayırdı... Həyatın, amansız xəstəlik və ölüm adlı acı həqiqətini bilə-bilə arzulayırdı...

Allah rəhmət eləsin!

**Təranə Məhərrəmova**